السنّة النبوية وعلومها
www.sunnah.global

# Allahın qayda-qanunlarına riayət edən və onları tərk edən toplumun məsəli gəmidə püşk atıb, onların bir qisminə gəminin yuxarısı, digər bir qisminə isə aşağı hissəsi

Numan bin Bəşir (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Allahın qayda-qanunlarına riayət edən və onları tərk edən toplumun məsəli gəmidə püşk atıb, onların bir qisminə gəminin yuxarısı, digər bir qisminə isə aşağı hissəsi nəsib olan bir camaatın misalı kimidir. Aşağıda olanlar su əldə etmək üçün yuxarıdakıların yanına gedib dedilər: “Nə yaxşı olardı biz öz hissəmizdə bir deşik açardıq və bizdən üstəkilərə zərər verməzdik". Əgər yuxarıdakılar onların istədiklərinə manə olmasalar, hamısı bütövlükdə həlak olarlar, yox əgər onlara mane olsalar, birlikdə xilas olarlar”.

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qayda-qanunlarına riayət edən, Allahın əmrini yerinə yetirən, yaxşı işlər görməyi əmr edən, pislikdən çəkindirən insanları misal gətirmişdir. Bir də, Allahın qanunlarından kənara çıxanları, haqqı tərk edənləri, pislik edənləri və bunun da toplumun nicat tapmasına mənfi təsiri olanları misal gətirmiş və bəyan etmişdir ki, bunların misalı, gəmiyə minən bir tayfanın misalı kimidir. Gəminin üstündə kimin, alt hissəsində kimin oturacağına dair püşk atarlar və onların bəzilərinə üstdə, bəzilərinə isə altda yerləşmək nəsib olar. Bu arada alt hissədə yerləşənlər su istədikdə yuxarıdakıların yanına gedərdilər. Sonra altda olanlar dedilər: “Biz yuxarıdakılara əziyyət verməmək üçün aşağıda öz yerimizdə bir deşik açsaydıq". Əgər yuxarıdakılar onlara bunu etməyə izn versələr, gəmi hamı ilə birlikdə batar. Yox əgər bunu onlara qadağan edib, mane olsalar, hər iki dəstə nicat tapar.

https://sunnah.global/hadeeth/az/show/3341

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee